

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 228 (24.365)

*8 dekabr 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 dekabr 2023-cü il*

## Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib




Dekabrın 6-da ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu keçirilib.

Forumu açan **ADA Universitetinin rektoru Hafiz Paşayev** dedi: – Zati-aliləri Prezident İlham Əliyev, ADA Universitetinin təşkil etdiyi forumun hörmətli iştirakçıları.

Cənab Prezident, bu gün Sizi və bütün iştirakçıları bu tarixi dövrdə universitetimizdə salamlamaqdan böyük şərəf və məmnunluq duyuram. Biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Bu mühüm nailiyyət Sizin uzaqgörən liderliyiniz sayəsində mümkün olmuşdur. Prezident İlham Əliyevin uzunmüddətli səyləri ilə bütün Azərbaycan cəmiyyəti vahid amal naminə səfərbər oldu. Bu qətiyyətli Qələbə Qarabağın 30 illik işğalına son qoydu. Cənab Prezident, icazə verin Sizi bu misilsiz nailiyyət münasibətilə təbrik edim və Sizə Qarabağın bərpası və yenidən qurulması işində uğurlar diləyim.

Qarşımızda nəhəng vəzifə var. İnfrastruktur layihələri ilə yanaşı, əsas vəzifə azərbaycanlı məcburi köçkünlərin rahat qayıdışı və məskunlaşmasıdır. Bir milyona yaxın azərbaycanlı işğalın qurbanı olub, onların evləri talan edilib və dağıdılıb. Hökumətin tapşırığı əsasında son 3 il ərzində ADA Universitetinin tədqiqatçıları məcburi köçkün ailələri ilə görüşərək onların ehtiyacları və prioritetlərini daha yaxşı anlamaq üçün müxtəlif sorğular aparmışdır. Onların əksəriyyəti doğma şəhər və kəndlərinə qayıdışla bağlı böyük istək ifadə etmişdir.

Dünən forum iştirakçıları azad olunmuş Zəngilan rayonunun ağıllı və ekoloji cəhətdən təmiz Ağalı kəndindəki inkişafın şahidi olmuşlar.

Məşhur beyin və tədqiqat mərkəzlərini təmsil edən 60-dan artıq xarici qonağın iştirak etdiyi bu forum qayıdış prosesinin sosial, iqtisadi, təhlükəsizlik və infrastruktur aspektlərini və Azərbaycanda beynəlxalq təcrübənin tətbiqini müzakirə etməyə imkan verəcək.

Cənab Prezident, forum iştirakçıları ilə görüşməyə razılıq verdiyinizə və məcburi köçkünlərin qayıdışı ilə bağlı müzakirədə iştirak etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu mövzuda Sizin baxışınız bizim regionumuz və daha geniş coğrafiya ilə məşğul olan bütün təhlilçilər və tədqiqatçılar üçün çox faydalı olacaqdır. Zati-aliləri söz Sizindir.

**Prezident İlham Əliyev:** – Təşəkkür edirəm. Xanımlar və cənablar, sabahınız xeyir. Əvvəlcə rektor Hafiz Paşayevə dəvətə görə təşəkkür edirəm. İlk dəfə deyil ki, mən ADA Universitetinin forumunda iştirak edirəm. Əslində, mən hər birində iştirak etmişəm. Sonuncu dəfə biz bu ilin may ayında bir qrup beynəlxalq mütəxəssis ilə Şuşada görüşdük və şadam ki, bu dəfə siz Azərbaycanın daha bir azad edilmiş bölgəsi olan Zəngilana səfər etdiniz, bərpa və məskunlaşma işlərinin şahidi oldunuz. Mən bu cür toplantıları faydalı hesab edirəm, çünki bu təmas vaxtı biz bir sıra vacib məsələləri müzakirə edirik. Mən də beynəlxalq ekspert dairələrində regionumuzda cərəyan edən son proseslərlə bağlı hansı sualların olduğunu daha da yaxşı anlayıram.

Regionda vəziyyət dəyişir və böyük dərəcədə dəyişikliklərin təşəbbüskarı Azərbaycandır. Bu, təbiidir, çünki biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin üzərində suverenliyini tam bərpa etməli idik. Biz bunu sülh yolu ilə etmək istəyirdik, eyni şəkildə biz, təqribən, 30 il ərzində Ermənistan ilə münaqişəni dinc yolla həll etmək istəyirdik. Lakin, təəssüflər olsun ki, bu mümkün olmadı. Bunun bir çox səbəbi var idi və biz onları ötən görüşlərimizdə ətraflı şəkildə müzakirə etmişik.

May ayındakı sonuncu görüşümüzdən bu yana, – tam bu heyətlə deyil, ancaq Şuşada olan iştirakçıların əksəriyyəti bu gün buradadır, – bizim hələ də ümidlərimiz var idi ki, Ermənistanın rəhbərliyini özünün beynəlxalq öhdəliklərini əməl etməyə inandırmaq mümkün olacaq. Xüsusilə də 2020-ci il noyabrın 10-u erkən saatlarda mənim, Rusiya Prezidentinin və Ermənistanın baş nazirinin imzaladığı Bəyanatla bağlı. Biz ümid edirdik ki, onlar öz imzalarına hörmət edəcək və uzun müddət davam edən qarşıdurmaya son qoymaq üçün vacib addımlar atacaqlar. Başqa sözlə desək, onlar öz qoşunlarını Qarabağdan çıxarmalı idilər. Onlar müxtəlif səbəblərdən bunu etmədilər.

Biz iki il yarım bundan əvvəl suverenliyimizi bərpa edərkən gözlədiyimizin şahidi olduq – Qarabağda Ermənistana məxsus böyük sayda hərbçilər var idi və onlar orada beynəlxalq hüquqa məhəl qoymadan yerləşdirilmişdilər. Onların sayı 15 minə yaxın idi. Üç il ərzində biz səbirli davrandıq, ümid edirdik ki, nəhayət, bu vəziyyətin həll yolu tapılacaq. Biz dərk edirdik ki, vəziyyət anormaldır və İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə bizim təklifimiz çox aydın idi – Qarabağda yaşayan insanların iki seçimi var. Biri Azərbaycan vətəndaşları olmaqdır və biz bunun üçün hüquqi və təhlükəsizlik çərçivəsi yaradırıq. Yaxud yaşayış üçün başqa yer tapsınlar. Başqa seçim yoxdur. Digər seçim isə özlərinin hesab etmədikləri ölkədə yaşayış və işləmək üçün icazənin alınmasıdır.




Bu seçimlər verilmişdi və təəssüflər olsun ki, bizim müraciətlərimiz və bəyanatlarımız lazımi şəkildə dəyərləndirilmədi.

May ayında Şuşadakı görüşümüzdən sonra may ayının sonunda Laçına qayıtmış keçmiş məcburi köçkünlərlə görüşdə mən vəziyyətlə bağlı mövqeyimi ifadə etdim və bildirdim ki, bu məsələnin normal həlli yolunu tapmaq üçün imkan var. Onu da dedim ki, separatçıların liderlərinin təslim olacağı təqdirdə onların amnistiyaya düşmək fürsəti olacaqdır. Bu, ictimai bəyanat idi. Təəssüflər olsun ki, bir daha mənim sözlərim lazımi şəkildə qiymətləndirilmədi. Hazırda separatçıların liderləri Azərbaycandadır. Onlar bura gəlmək istəyirdilər. Onlar bizi hədələyirdilər ki, buraya tank üzərində gələcəklər. Bu gün isə Azərbaycanın ədliyyəsinin hökmünü gözləyirlər.

Buna baxmayaraq, biz ümid edirdik ki, Qarabağ ermənilərinin nümayəndələri ilə təmaslar qura biləcəyik. Lakin orada dırnaqarası hakimiyyəti inhisara götürmüş adamlar buna imkan vermədilər. Bundan əlavə, iki hadisə baş verdi ki, bu bizim üçün sonuncu, qırmızı xəttin keçilməsi demək idi. Birincisi, Ermənistanın baş nazirinin dırnaqarası dağlıq qarabağ respublikasının dırnaqarası müstəqilliyi münasibətilə təbriki idi ki, bu, Ermənistanın baş nazirinin dedikləri və imzaladığı ilə tam ziddiyyət təşkil edirdi. Çünki keçən ilin oktyabrında Ermənistanın baş naziri Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımışdır və həmin ruhda olan çoxsaylı bəyanatlardan sonra separatçılara təbrik göndərmək tamamilə qəbuledilməz və ziddiyyətli idi.

İkinci və sonuncu qırmızı xətt isə həmin hadisədən bir həftə sonra dırnaqarası dağlıq qarabağ respublikasının dırnaqarası prezidentinin seçkiləri idi ki, bu da İkinci Qarabağ müharibəsindən sonra əldə olunmuş şifahi razılıqların tamamilə pozulması oldu. Razılıq ondan ibarət idi ki, həmin ərazidə hər hansı dəyişikliklər baş verməyəcək.




Beləliklə, bir gündən də az sürən antiterror əməliyyatı bizə imkan verdi ki, suverenliyimizi bərpa edək. Yeri gəlmişkən, əməliyyat elə tərzdə aparılmışdır ki, mülki infrastruktura zərər dəymeyib və dinc əhali arasında itkilər olmayıb. Əməliyyat başlayan anda bəyan etdik ki, Ermənistan ordusu silahları yerə qoyan kimi biz dayanacağıq və onlara oraları tərk etməyə icazə verəcəyik. Əməliyyat 24 saatdan az sürdü və onlar təslim olduqlarını bəyan edəndən sonra bütün fəaliyyətlər dayandırıldı.

Beləliklə, bu bizim may ayında sonuncu görüşümüzdən sonra baş vermiş ən mühüm hadisələr idi. İndi isə biz bir neçə beynəlxalq çağırışla üz-üzəyik. Təəssüflər olsun ki, biz tərəfdaş hesab etdiyimiz bəzi ölkələr tərəfindən anlaşılmazlıq görürük və biz mövqeyimizi izah etməyə çalışırıq. Həm də izah edirik ki, beynəlxalq hüququn normaları hər kəs üçün mütləqdir və selektiv yanaşmaya yol verməmk olmaz. Azərbaycan etdiyini BMT Nizamnaməsinin özünümüdafiə ilə bağlı 51-ci maddəsinə uyğun olaraq edib. Bu, beynəlxalq hüquqa əsasən olunub və istənilən ölkə kimi Azərbaycanın da suveren hüququ var ki, ərazisinə tam nəzarət etsin.

Siz dünən Zəngilanda olmusunuz. Bilirəm ki, mənim azad olunmuş ərazilərdəki nümayəndələrim yenidənqurma və bərpa işləri ilə bağlı sizə məlumat veriblər və bununla bağlı təfərrüata varmağa ehtiyac görmürəm. Əlbəttə, bununla bağlı suallarınız olarsa, cavab verməyə hazıram. Ancaq bununla vaxtınızı almaq istəmirəm. Çünki son 3 ildə görülən işlərdən danışsam, vaxtımız başa çatar. Mən çıxışımı burada dayandırım və müzakirəmizi davam edək.

***

Tədbir 30 ölkəni təmsil edən 60 xarici ekspertin sualları və cənab Prezidentin sualları cavablandırması ilə davam edib.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsinin və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 3 noyabr tarixli 210-VI FR nömrəli Fərmanının 3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) işçilərinin say həddi cəmi 91 ştat vahidi olmaqla, Agentlik Aparatının işçilərinin say həddi 47, regional bölmələrinin işçilərinin say həddi 44 ştat vahidi müəyyən edilsin.

2. Agentliyin bu Fərmanın 1-ci hissəsinə əsasən müəyyən edilmiş ştat vahidlərinin maliyyələşdirilməsi aşağıdakı qaydada həyata keçirilsin:

2.1. Agentlik Aparatının 25 ştat vahidi və regional bölmələrin 22 ştat vahidi – 2023-cü il noyabrın 7-dən;

2.2. Agentlik Aparatının 22 ştat vahidi və regional bölmələrin 22 ştat vahidi – 2025-ci il yanvarın 1-dən.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq maliyyələşməni təmin etsin.

4. Agentlik bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 7 dekabr 2023-cü il*



# Heydər Əliyev İli

*Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev 1990-cı il iyulun 20-də böyük manеələri aşaraq Moskvadan Bakıya, iki gün sonra isə doğulub boya-başa çatdığı Naxçıvana qayıtmışdır. Ulu Öndər Heydər Əliyev Naxçıvana gəldiyi ilk günlərdən bir çox yerli və xarici ölkələrin mətbuat orqanlarına müsahibələr vermiş, bu müsahibələrdə dövrün ictimai-siyasi proseslərinə münasibətini açıqlamışdır. Azərbaycanın ovaxtkı siyasi rəhbərliyi tərəfindən informasiya blokadasına salınan dahi şəxsiyyətin ən geniş və ölkədə böyük rezonans doğuran müsahibələrindən biri də həmin dövrdə Azərbaycan Kommunist Partiyası Saatlı Rayon Komitəsinin və Xalq Deputatları Sovetinin rəsmi orqanı olan "Dönüş" qəzetinin 1990-cı il 23, 25, 28 avqust tarixlərində dərc olunan müsahibə idi. Mütəllibov hakimiyyətinə güllə kimi dəyən bu müsahibənin dərcindən sonra müəllif Fəxrəddin Ağamirzəyev "öz ərizəsilə" işdən azad edilmiş, bir daha əlinə qələm almamaq şərtilə dilindən yazılı iltizam alınmışdır. "Şərq qapısı" qəzeti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə "Heydər Əliyevlə müsahibə"ni oxucularına təqdim edir.*

**(Əvvəli qəzetin 5,6,7 dekabr 2023-cü il tarixli nömrələrində)**

# Heydər Əliyevlə müsahibə

***– Mümkünsə Şimali və Cənubi Azərbaycanın gələcəyi haqqında fikriniz. Və onu necə görmək istərdiniz?***

– Bu, çox mürəkkəb məsələdir. Bu məsələ məni uzun illər mühüm məsələlərdən biri kimi narahat edibdir. Mən bu məsələ haqqında da daim düşünmüşəm və xüsusən Azərbaycan Respublikasının rəhbəri olduğum dövrdən sonra daha da yaxından bu məsələ ilə tanış olmaq, bu məsələni özümçün aşkar etmək cəhdində olmuşam. Belə fikrə gəlmişəm ki, vaxtilə, keçən əsrin əvvəlində Azərbaycan xalqı onun öz iradəsindən asılı olmayaraq parçalanıb iki yerə bölünüb. Şimali Azərbaycan Rusiyanın tərkibinə keçib. Cənubi Azərbaycan İranın tərkibində olubdur. Dəmək, Azərbaycanın iki hissəsi ayrı, cürbəcür inkişaf yolu keçib və şimalda yaşayan azərbaycanlıların aqibəti bir cür olubdur, Cənubda yaşayanların başqa cür. Mən Cənubda yaşayan azərbaycanlıların nümayəndələri ilə də çox görüşmüşəm, söhbətlərim olubdur. Belə fikrə gəlmişəm, özü də çoxdan, Azərbaycan xalqı birləşməlidir. Xalq bir olmalıdır! Ancaq bunun həyata keçirilməsi yolları heç də asan deyil. Gəlin ümid bəsləyək ki, gələcəkdə xalq bir olacaq.



***– Respublikamızda əlifbanı dəyişmək, latın əlifbasına qayıtmaq üçün işlər görülür. Bu tədbirə münasibətiniz.***

– Mən belə fikirləşirəm ki, bu tədbiri çoxdan görmək lazım idi. Mən özüm orta məktəbi Azərbaycan dilində latın əlifbası ilə qurtarmışam. Ona görə də mən latın əlifbasını ilk təhsil aldığım illərdən yaxşı bilirəm. Mən belə fikirdəyəm ki, latın əlifbası Azərbaycan dili üçün daha da əlverişli əlifbadır. Vaxtilə bunun 40-cı ildə dəyişilməsi böyük səhv olubdu, bu səhvi nə qədər tez düzəltsək o qədər Azərbaycan xalqı üçün mənfəətli olar.

***– Sizi Naxçıvan camaatı Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd göstərib və bu məqsədlə doğma diyara gəlmisiniz. Bu müddət ərzində hansı rayonlarda olmusunuz?***

– Mən Naxçıvana gələndən indiyə qədər – iyul ayının 22-də gəlmişəm – hər gün Naxçıvan MSSR-in kəndlərindən, qəsəbələrindən, şəhərlərindən cürbəcür, necə deyərlər, təbəqələrin nümayəndələri, cürbəcür yaşlı adamlar, qadınlar və kişilər mənim yanıma gəlirlər. Dəmək olar ki, mənim bütün günüm səhərdən ta gecəyə qədər bax belə adamlarla görüşlərdə keçir. Ona görə mənim burada yaşadığım müddətdə hər günüm çox səmərəlidir, çox da mənalıdır. Çünki bu söhbətlərdən, danışıqlardan özümçün yeni nəticələr çıxarıram və bir insan kimi özümü daha da yaxşı hiss edirəm. Çünki bu adamlar hamısı sadə adamdırlar, azərbaycanlıdırlar, doğma torpağın adamlarıdır və bunlarla görüşüb söhbət etmək mənim üçün həmişə çox xoşdur.

Bununla yanaşı, burada olduğum müddətdə bir çox yerlərdə görüşlərim olub. Məsələn, mən gələn gün tamamilə heç təşkil olunmadan Naxçıvan vilayətinin hər yerindən Naxçıvan şəhərinin mərkəzi meydanına böyük izdiham toplaşmışdı. Mən gedib orada onlarla görüşüb öz sözlərimi demişəm. Onlar da mənə öz məhəbbətlərini bildirmişlər. Ordubad rayonunun mərkəzində ordubadlılarla görüşmüşəm. Culfa rayonuna gedib rayon mərkəzində culfalılarla görüşmüşəm. Əylis kəndinə getmişəm. Orada kəndin bir qrup adamları ilə görüşmüşəm. Naxçıvan şəhərində gənclərin xahişi ilə mədəni-maarif evində onların nümayəndələri ilə görüşmüşəm. Burada Cəmşid Naxçıvanskinin ev-muzeyi təşkil olunubdur. Və bu günlərdə Cəmşid Naxçıvanskinin 95 illik yubileyi qeyd olundu. Ona görə də o muzeyə gedib orada da Naxçıvan şəhərinin bir qrup ziyalıları ilə görüşüb söhbət etmişəm.

***– Bir az da xahiş edirəm öz şəxsi həyatınız haqqında söyləyəsiniz.***

– Şəxsi həyatım (gülümsəyir) belədi ki, mən ailəmlə yaşayıram, ailəm deyəndə ki, uşaqlarımla – qızım və onun uşaqları, oğlum və onun uşaqları ilə. Həyat yoldaşım 5 il bundan qabaq vəfat edibdir. Ona görə mən ancaq öz uşaqlarımla yaşayıram... Ailə həyatımda başqa elə bir dəyişikliklər yoxdur. Həmişə ailəmi, öz uşaqlarımı sevmişəm. Həmişə, lap gənc yaşlarımdan ailəpərəst olmuşam. Ona görə də uşaqlarım və nəvələrim indi bütün hər günümü sevinclə doldururlar, bu barədə heç bir narahatçılığım yoxdur.

***– Respublikaya qayıdandan sonra jurnalistlərlə çoxmu görüşünüz olub? Daha çox hansı jurnalistləri maraqlandırmısınız?***

– Naxçıvana qayıdandan daha çox, əsasən, Naxçıvan Muxtar Respublikasının jurnalistləri ilə görüşüm olub. Təəssüf ki, Bakıdan olan jurnalistlərin heç birisi mənim yanıma gəlməyib. Mən bura gələndən bir neçə gün sonra Moskva qəzetlərinin bir neçəsi mənim Naxçıvanda olmağımı və burada olan böyük izdihamlı görüşüm haqqında məlumat vermişdilər. O cümlədən "Arqumenti i faktı" qəzetində yazılmışdır ki, Əliyev yenidən siyasətə qayıtmışdır, onun Naxçıvanda əhali ilə görüşü olmuşdur, görüşdə 30 min nəfərə qədər adam iştirak etmişdir. Bundan xeyli çox adam olmuşdur əslində. Ancaq belə bir qısa məlumat olmuşdur. Bakıdan bir-iki azad qəzetlərin jurnalistləri gəlib mənimlə görüşüblər. Ancaq rəsmi mətbuat orqanlarının jurnalistləri mənim yanıma gəlmirlər. Mərkəzi televiziyanın "Zaman" xəbərlər redaksiyasının Azərbaycan respublikası üzrə müxbiri Mais Məmmədov mənə zəng etdi və çatdırdı ki, Moskvadan ona göstəriş var ki, mənimlə görüşsün, mərkəzi televiziyaya material hazırlasın. Mən də razılığımı verdim ki, o gəlsin. O dedi ki, onda sabahları mən gəlirəm Naxçıvana sizinlə görüşməyə. Ancaq ondan sonra o gəlmədi. Mənə belə gəlir ki, burada nəsə bir səbəb var. Çünki bu onun özünün təşəbbüsü deyildi. Bu mərkəzi televiziyanın təşəbbüsü idi. Gəlmədi gəlməsin, eybi yoxdur.

Bundan başqa, Litvadan, Estoniyadan mənim yanımda jurnalistlər olmuşlar. Sonra Moskvadan bir-iki jurnalist telefon vasitəsilə məndən müsahibə almışdır.

***– "Durğunluq illəri" – bu terminə münasibətiniz.***

– Mənə belə gəlir ki, bu termin haqqında daha ədalətli söhbət aparmaq lazımdır, indi adət olmuşdur, əsaslı da, əsassız da durğunluq illərini tənqid edirlər. Hər dövrün özünə görə nailiyyətləri də var, şübhəsiz ki, nöqsanları, səhvləri də. Mən, ümumiyyətlə, bu barədə öz fikrimi demək istəmirəm. Ancaq Azərbaycanda mənim fikrim belədir ki, 70-ci illərdə durğunluq illəri olmayıbdır. O illər Azərbaycanın iqtisadiyyatı, sosial sahəsi, mədəniyyəti yüksək templərlə inkişaf etmişdir və Azərbaycan respublikası o illərdə çox böyük nailiyyətlər əldə etmişdir. Bu o demək deyildir ki, o illər qüsursuz olubdur. Heç bir dövr qüsursuz ola bilməz. Ancaq hər şey müqayisə ilə qiymətləndirilə bilər. Götürün 70-ci illərdə Azərbaycanın 9-cu, 10-cu və yaxud on birinci beşilliyi, indi götürün bu son beşilliyi. Müqayisə edin. Onda sizin üçün aydın olar. Nə vaxt durğunluq olub, nə vaxt inkişaf. Mən hesab edirəm ki, o vaxtlar Azərbaycan inkişaf dövrü keçirib. İndi isə durğunluq dövrü keçirir. Mən bu yaxınlarda qəzetlərdə oxuyuram ki, Azərbaycan Mərkəzi Komitəsinin bürosunun məruzəsində yazılıb ki, ötən dörd ildə Azərbaycanın sənayesi cəmisi 5-6 faiz inkişaf edibdir 4 ildə. Ancaq 9-cu beşillikdə, onuncu beşillikdə hər ildə Azərbaycanın sənayesi 8, yaxud 9 faiz inkişaf edirdi. Doqquzuncu beşillikdə Azərbaycanın sənayesi 50 faiz artmışdır. Onuncu beşillikdə 47 faiz artmışdır. Amma bu son dövrdə 5-6 faiz. Əgər o dövrdə bir ildə Azərbaycanın sənayesi bax bu dörd ildə indiki səviyyəyə qalxmış olsaydı, biz özümüz özümüzü ittiham eləyərdik. Bax indi özünüz görün, havaxt durğunluq olub, havaxt inkişaf. Hər şey həqiqətdə olmalıdır, yoxsa elə, sözlə olmaz ki.

***– Birinci katib olduğunuz illərdə aşağıların sizi tənqidlərinə münasibətiniz necə olub?***

– Mən həmişə tənqidin və özünütənqidin inkişafı üçün çalışmışam. Heç vaxt mənim fəaliyyətimə tənqidi münasibətə qarşı pis rəftarda olmamışam. Çünki hər bir tənqiddən gərək rəhbər özü üçün nəticə çıxara.

***– Respublikamızda yeni yaranan partiyaların, Xalq Cəbhəsinin fəaliyyətini necə qiymətləndirirsiniz?***

– İndi, ümumiyyətlə, bizim ölkədə, Sovet İttifaqında, o cümlədən Azərbaycanda çoxpartiyalılıq prinsipi artıq həyata keçir. Əgər bu prinsipi biz həyata keçiririksə, deməк, yeni yaradılan partiyalar, yaxud da ki, siyasi qüvvələrin mövcud olması tamamilə təbiidir. Və mənim hərəkatların hamısına münasibətim müsbətdir.

***– Sizin yaddaşınıza, xüsusilə rayonumuzda həmişə qibtə olunub. Əmək qabaqcıllarının, demək olar ki, əksəriyyətinin adını, dəqiq iş yerini bir dəfə görüb-eşitməklə yadınızda saxlayırsınız. İndi rayonumuzdan yadınızda qalan varmı?***

– Saatlı rayonu Azərbaycanın bütün guşəsi kimi, mənim üçün doğmadır, əzizdir. Mən Saatlı rayonunda dəfələrlə olmuşam. Və məhz 70-ci illər dövründə Saatlı rayonunun iqtisadiyyatı çox yüksək templərlə inkişaf eləyirdi. Mənim xatirimdədir ki, Saatlı rayonunda, təxminən, 70-ci illərin əvvəllərində iyirmi min tondan artıq pambıq istehsal olunmurdu. Ancaq 70-ci illərin axırlarında – 80-cı illərin əvvəllərində Saatlı rayonunda, mənə belə gəlir ki, 55-60 min tona qədər pambıq istehsal olunurdu. Bax, bu mənim yadıma gəlir. Dəmək, pambıq istehsalı üç dəfəyə yaxın artmışdır. Dəmək, bu, rayona xeyli gəlir gətirmişdir. Rayonun iqtisadiyyatını artırmışdır. Təkcə pambıq deyil, Saatlı rayonunda taxıl istehsalı da o dövrdə çox inkişaf eləmişdi. Heyvandarlıq sahəsində də nailiyyətlər var idi. Saatlıda kəndlərin, qəsəbələrin, rayon mərkəzinin abadlaşması məsələsi də həmişə məni maraqlandırırdı. Mən sizin rayona gələndə hər dəfə təsərrüfatlarda olurdum, kolxoz, sovxoz rəhbərləri ilə, briqadirlərlə, adi təsərrüfat adamları ilə görüşüb söhbət edirdim. Onların çoxu indi də mənim xatirimdədir. Mən indi bir-bir hamısının adını sizə demək istəmirəm, çünki ola bilər ki, birinin adını deyim, o birisini deməyim. Onda biri desin ki, Əliyev məni yadında saxlayıb, o birisini yadında saxlamayıb. Ancaq saatlılılara mənim həmişə hörmətim olub və xüsusən Saatlı rayonunun, ümumiyyətlə, pambıqçılıq rayonlarının zəhmətkeş qadınlarına, çoxuşaqlı analarına böyük hörmətim olubdur. Mən belə böyük hörmət hissilə Saatlı rayonunun sakinləri ilə görüşlərimi xatırlayıram və bu fürsətdən istifadə edərək sizdən xahiş edirəm ki, onların hamısına mənim salamımı və xoş arzularımı çatdırasınız.

*(Ardı var)*

**Fəxrəddin AĞAMİRZƏYEV**
***"Dönüş" qəzeti, 1990-cı il***

*Azərbaycan xalqının Ümummilli Lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Liderimiz Heydər Əliyevin xidmətləridir.*

2023-cü il "Heydər Əliyev İli"dir

# Ulu Öndərin əbədiləşmiş ideya və əməlləri ölkəmizi işıqlı gələcəyə aparır



Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalmışdır. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları hörülmüş, sosial-iqtisadi və mədəni potensialı formalaşmışdır. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, əsaslı dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

Müstəqil dövlətimizin banisi Heydər Əliyevin tükənməz mənəvi irsi onun çoxəsrlik tariximizin ən mükəmməl və qüdrətli şəxsiyyəti olduğunu sübut etmişdir. Azərbaycanın müstəqilliyini təmin etməklə, suveren dövlətin əsaslarını yaratmaqla Ulu Öndər xalqımızın təminatlı gələcəyinə işıqlı yol açmışdır. Ölkəmiz yarım əsrdən artıqdır ki, qüdrətli liderinin amal və ideyalarına uyğun olaraq irəli gedir, çətinlikləri inamla aradan qaldırır, tarixə yazılan uğurlara imza atır. Dünyanın tərəqqipərvər insanları və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, yaratdığı dəyərli irsə ehtiramla yanaşırlar. Ölkəmizin ən yeni tarixinin bütöv bir dövrü Ümummilli Lider Heydər Əliyevin şərəfli adı və qətiyyətli fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin ölkəmizə hər iki rəhbərliyi dövründə respublikamız əsrə bərabər inkişaf yolu keçmişdir. Ümummilli Lider var qüvvəsini və bacarığını respublikamızın inkişafına həsr etmişdir. Heydər Əliyev bütün Türk dünyasının sevimlisi, türkdilli xalqların fəxr etdiyi şəxsiyyətlərdəndir. Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində məhv olmaq təhlükəsi ilə üzləşəndə Ulu Öndər öz xalqının harayına yetişərək onun xilaskarına çevrildi. 1993-cü ilin yayında – Vətənin dar günündə ölkənin ictimai-siyasi həyatında baş verən çaxnaşma, hakimiyyət uğrunda gedən mübarizə, cəbhədəki acınacaqlı məğlubiyyətlər, vətəndaş qarşıdurması zamanı xalqımız öz xilaskar oğlunu hakimiyyətə dəvət etdi. Ümummilli Lider demişdir: ***"Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram".***

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömürboyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – "Milli Qurtuluş Günü" kimi qeyd edir. Xalqın tələbi ilə yenidən Azərbaycana rəhbərlik etdiyi dövr Heydər Əliyev fəaliyyətinin qızıl salnaməsidir. Azərbaycanda müstəqil dövlət təsisatlarının yaradılması, demokratik, hüquqi dövlət quruculuğunun əzmlə həyata keçirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təminatı və yeni iqtisadi kursun müəyyənləşdirilməsi şəxsən Heydər Əliyevin xalqı qarşısındakı əvəzsiz xidmətləridir. Dahi liderimiz nəinki müstəqilliyimizi qoruyub saxladı, onu əbədi və dönməz etdi. Zamanın bu dahi şəxsiyyətə, onun dərin zəkasına, polad iradəsinə, zəngin təcrübəsinə və hədsiz Vətən sevgisinə etibar etdiyi tarixi missiyanı layiqincə yerinə yetirməyə müvəffəq oldu.

Ümummilli Liderimizin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai-siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin təməlini qoyduğu güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Ulu Öndərin inkişaf xəttini yeni ideyalarla zənginləşdirən ölkə Prezidenti cənab İlham Əliyevin səmərəli fəaliyyəti nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı daha sürətli xarakter almış, Azərbaycan regionun ən güclü dövlətinə çevrilmişdir. Bunun nəticəsi olaraq vətəndaşların rifahı xeyli yaxşılaşmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dərin islahatlar nəticəsində qazanılmış hərbi potensial şanlı Ordumuzun düşmən üzərində parlaq qələbəsini şərtləndirmişdir. Ali Baş Komandan cənab İlham Əliyev çoxəsrlik tariximizə Zəfər Gününü yazmaqla xalqımıza Qələbə sevincini yaşatdı. Həmçinin ölkə başçısı Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən bir daha müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin ona olan etimadını, inamını bütün istiqamətlərdə doğrultduğunu, ən əsası işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı vəsiyyətini yerinə yetirməsindən qürurlandığını ifadə etmişdir.

*Ulu Öndərin zəngin və çoxşaxəli irsi xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Ulu Öndərin əbədiləşmiş ideya və əməlləri ölkəmizi bundan sonra da işıqlı gələcəyə aparacaqdır.*

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi, kiçik ədliyyə müşaviri***

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq

## Qazaxıstanla Azərbaycan arasındakı əlaqələrdə körpü rolunu oynamağa çalışırıq





**Rövşən İSMAYILOV**
**Almatı şəhərində yerləşən "Ata yurd – Normand" Respublika İctimai Birliyinin sədr müavini, "Türk Birliyi" jurnalının baş redaktoru**

MDB ölkələri içərisində mühüm mövqeyi ilə seçilən ölkələrdən biri də Azərbaycana dost və qardaş ölkə sayılan Qazaxıstandır. Yüz mindən çox azərbaycanlının yaşadığı Qazaxıstanda həmyerlilərimiz cəmiyyət həyatının müxtəlif sahələrində təmsil olunurlar. Azərbaycan dövlətinin diaspor quruculuğu ilə bağlı gördüyü işlər bu ölkədə də həmvətənlərimizin vahid ideya uğrunda birləşməsinə geniş imkanlar açıb. Mən özüm iyirmi ildir, Almatıda yaşayıram. Bizim üçün ən böyük uğur gördüyümüz işlərdə əlimizdən gəldiyi qədər Azərbaycan adını uca tutmaq, dili və kökü bir olan qazax qardaşlarımızla birgə burada yaşayanlara kimliyimizi, tarix və mədəniyyətimizi tanıtmaq, təbliğ etməkdir. Burada yaşayan azərbaycanlıların ən böyük məqsəd və məramı "Soruşma, Vətən sənin üçün nə edib, soruş ki, sən Vətənə nə etmisən!" şüarı üzərində qurulub.

Uzun illər vətəndən uzaqda yaşasaq da, hər zaman çalışmışam ki, fəaliyyətimizlə xalqımıza töhfə verək. Hazırda Qazaxıstanda fəaliyyət göstərən və 5 min tirajla yayımlanan "Ahıska" qəzeti və "Türk Birliyi" jurnalı olaraq Azərbaycan həqiqətlərinin bu qardaş ölkədə yayımlanması üçün mütəmadi silsilə yazılar dərc etdiririk. Burada İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünya mətbuatına verdiyi müsahibələrin toplusunu əks etdirən "Qarabağ Azərbaycandır!" adlı jurnalımızın xüsusi sayını nəşr etdirdik. 2023-cü ildə Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə müxtəlif kitablar çap etdirərək Almatıda təqdimatını keçirdik. Həmçinin müəllifi olduğum "Qarabağ Azərbaycandır!" adlı şeirlər kitabının həm Qazaxıstanda, həm də Bakıda təqdimatları keçirildi. Bunu da qeyd edim ki, İkinci Qarabağ müharibəsinin ilk günlərindən Ahıska türkləri Azərbaycan Respublikasının Prezidentinə müraciət ünvanlayaraq hər zaman Azərbaycanın



yanında olduqlarını bildirdilər. Həmçinin həmin dövrdə pandemiya şəraitinə rəğmən biz Qazaxıstanın 17 əyalətindən olan insanları toplayaraq Azərbaycanı dəstəkləyən çağırışlar etdik. Həmin çağırışlarda bizim qazax qardaşlarımız da iştirak edirdi. Bizimlə birgə onlar da Azərbaycanın haqq savaşında olduğunu bəyan edirdilər.

Bununla bərabər müharibə dövründə imkanlar çərçivəsində "YAŞAT" Fonduna maddi dəstək də göstərdik. Azərbaycan Respublikası Diaspora ilə İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə iki dəfə Şuşa şəhərində səfərdə olduq. Öz doğma yurd yerlərimizi görmək bizi çox sevindirdi. Qazaxıstan nümayəndəsi olaraq ikinci dəfə biz Dünya Azərbaycanlılarının Şuşada keçirilən 5-ci Qurultayına dəvət olunduq. Bu, həqiqətən də, tarixi bir hadisə idi və buna yaxından şahidlik etmək mənim üçün qürurverici idi. Onu da deyim ki, həmin vaxtlar Bakı şəhərinə səfərlərimiz tez-tez olurdu. Bu zaman çərçivəsində əlimizdən gələn dəstəyi göstərməyə çalışırdıq. Bu dəstəyin göstərilməsində Dünya Ahıska Türkləri Birliyinin rəhbəri Ziyatdin Kassanovun da böyük dəstəyi oldu.

Bu gün Qazaxıstanla Azərbaycan arasında əlaqələr yeni inkişaf dövrünü yaşayır. Bir azərbaycanlı olaraq bu əlaqələrdə Qazaxıstanla Azərbaycan arasında körpü rolunu oynamağa çalışırıq. Mən həm də mərkəzi Almatı şəhərində yerləşən "Ata yurd – Normand" Respublika İctimai Birliyinin sədr müavini vəzifəsini icra edirəm. Qısa müddət


AHISKA
"Ülkemizi bölgesel ve küresel meselelerde söz ve etki sahibi yaptık" Sayfa 4
Встреча Главы государства с Президентом Азербайджана Ильхамом Алиевым стр 2
Обращение
Необходимо развивать международное волонтерство
стр 6
Гусейнов Яша Касцонович стр 10
Надежда отечественного спорта стр 8
Спортивные достижения молодых спортсменов из Ворошилова

ərzində fəaliyyət göstərməyimizə baxmayaraq, artıq Qazaxıstanın Xalqlar Assambleyasında təmsil olunuruq və milli bayramlarımızı geniş şəkildə qeyd edirik. Bizim üçün dünya azərbaycanlılarının həmrəyliyi, sözün əsl mənasında, Ulu Öndərimizin ideyalarına, Azərbaycançılıq fikirlərinə sözdə deyil, əməldə sadiq qalmaqdır. Bundan sonrakı fəaliyyətimizdə də bu ideyaların yaşadılmasına, təbliğ edilməsinə çalışacağıq.

*44 günlük Vətən müharibəsindəki ağır məğlubiyyətindən sonra Vaşinqton, Paris və İrəvanın qaranlıq otaqlarında oturub Azərbaycana qarşı yenidən kirli planlar cızan ermənilər hələ 36 il əvvəl, 1987-ci ilin noyabrında başabəla sovet akademiki Aqanbekyanın fransız kommunistlərinin yayım orqanı olan və buna görə də keçmiş SSRİ-də də geniş təbliğ olunan “Humanite” qəzetinə verdiyi o sərsəm müsahibəni unutmamalıdırlar.*

# Zəngəzura salam olsun



İndi məlum olur ki, on illərlə “kirvə” niqabının arxasında gizlənib azərbaycanlıların qanını tökməyə hazırlaşan hayların iç üzünü, əslində, ifşa edən o yazı bu gün məşhur olmuş “Allah haqqı erməni millət deyil” adlı ştamp ifadənin, sadəcə, bir girişi idi. Çünki kökü olmayan erməni cəmiyyətinə bundan artıq qiyməti nə okeanın, nə də Arazın o tayında da heç kim belə açıq-aydın verə bilmir. Ona görə də ağaların birinin qalstukundan, o birinin də saqqalından yapışıb ortada qalmış Paşinyan hökuməti bir də yuxudan ayılanda onun qatarının artıq çoxdan getdiyini görəcəkdir. Bununla da münaqişə sonrası ölkəmizin sülh təkliflərini bir-bir boşa sərf edən Ermənistan fürsətlərdən uzaqlaşdığı bir dönəmdə xalqımızın addım-addım Qərbi Azərbaycana yaxınlaşması tarixin bizə verdiyi haqq-ədalət mükafatıdır.

Azərbaycanlılar bir gün mütləq Qərbi Azərbaycana qayıdacaqlar. Bu qayıdış fundamental insan hüquqlarından biri olub, hər bir soydaşımızın əzəli ata yurduna dönə bilmək haqqıdır. Çünki Qərbi Azərbaycan deyəndə təkcə XX əsrdə dəfələrlə, ən son isə 1988-ci ildən zorla deportasiya edilmiş 260 mindən çox soydaşımızın yaşadığı kənd və şəhərlər deyil, eyni zamanda təbiət gözəli dağlar, çaylar, göllər və şəlalələr, Azərbaycan xalqının tarixi köklərinin izlərinin yaşandığı yaşı min ildən artıq olan abidələr, qədim yurd yerləri yada düşür. Bu gün Qarabağ erməni separatizmindən tam azad olunsa da, hələ də bizdən uzaqda qalmış bu sərvətlərimizə də çata bilmək hər bir azərbaycanlının arzusudur. Odur ki, hazırda bu torpaqlarda kimlərin yaşamasından asılı olmayaraq, Qərbi Azərbaycanı hər mədəniyyət tədbirində, hər yazıda, hər söhbətdə yada salmaq, burada yaşamış insanları tanımaq, keçmişini öyrənmək, təbiətinə bələd olmaq, hətta gündəlik hava haqqında məlumatları ilə də tanış olmaq tamamilə təbii bir istək məsələsidir. Belə ki, indi təkcə Qərbi Azərbaycanda yaşamış soydaşlarımız deyil, ömründə heç bu torpaqları görməmiş bütün digər azərbaycanlılar üçün Bakı, Təbriz, Ərdəbil, Dərbənd qədər İrəvan da böyük Vətənimizin bir parçasıdır. Odur ki, bir gün Qərb torpaqlarımıza da ayaq basan həmyerlilərimiz bizim buradakı xoşməramlı elçilərimiz kimi yenidən doğulduqları torpaqlara qovuşacaq, ata yurdlarını ziyarət edəcəklər.

Qonşuları ilə yaşamağı bacarmayan ermənilər isə hələ də intuitiv xüsusiyyətlərinin əsirliyindən çıxmayıblar. Başlarının üstündə, yaxud gözlərinin önündəki reallığı görə bilməyən kor hay topluluğuna birisi bir şeyin buraxdısa sanki içinə çöp uzadılmış qaranlıq qarışqa yuvası kimi qaynaşacaq, bir-birlərini əzib qıracaqlar. Buna elə bu ilin sentyabrında keçirilmiş antiterror tədbirlərindən sonra da şahid olduq. Sən demə, Laçın yoluna düzülüb aradan çıxmaq istəyən həmin bu ermənilərin elə hamısının barmaq izlərində qan ləkələri varmış. Elə buna görə də bu gün Ermənistanın özündə də küçədə qalmış bu separatçıların aldığı ən böyük cəzanın elə öz qəbilədaşlarından gəlməsi təsadüfi deyildir. Belə ki, hazırda Ermənistan hökuməti ilə Qarabağ separatçılarının bir-birlərinə olan mövcud münasibətləri Kremlin bütün haylara olan münasibətindən heç də isti deyildir. Buna görə də qonşularını yaşaya bilmək xəyalları ilə zəhərlənmiş erməni toplumunun gələcəyi belə getsə, üçgünlük göbələk ömrü qədər simvolik olacaq.

Qərbi Azərbaycana qayıdış strateji hədəf olub, bu torpaqlardan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası istiqamətində ölkəmizdə həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir. Ulu Öndərin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ata vəsiyyətinə əməl edərək torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana qayıdış konsepsiyasını da uğurla həyata keçirir, bu istiqamətdə güclü diplomatik addımlar atır. Artıq görünməkdədir ki, Azərbaycan öz güclü iqtisadi-mədəni potensialı, gündən-günə artan siyasi nüfuzu ilə bu konsepsiyanı da gec-tez reallığa çevirməklə bu sahədə də beynəlxalq hüququn bərpasına nail olacaq. Bu mənada, ötən ay Naxçıvanda keçirilmiş “Qərbi Azərbaycana qayıdış” festival-konqresi özünün möhtəşəmliyi ilə bu məsələdə xalqımızın istəyini və dövlətimizin qətiyyətini ortaya qoydu. Bu mühüm tədbirdəki çıxışlar, dünyaya verilən mədəniyyət ismarıcları erməni toplumunun tarixdə nə qədər parazit, erməni ideoloqlarının isə nə qədər yalançı olduqlarını bir daha sübut etdi. Dünya gördü ki, Azərbaycan Ermənistan üzərində təkcə müzəffər Ordusu ilə deyil, iqtisadiyyatı və mədəniyyəti ilə də qələbə çalmışdır. Festivalda Qərbi Azərbaycandan olan soydaşlarımızın otuz il əvvəldən yaşatdığı xatirələr, səsləndirilən musiqi əsərləri, sərgilənən ədəbiyyat nümunələri, elmi araşdırmalar, məqalələr toplusu, rəsm əsərləri, İrəvan mətbəxi nümunələri bu torpaqlara qayıdışın ilk uğurlu addımlarından biri olmuş, uzun illər yuvasından ayrı düşmüş insanların ürəyində yeni ümidlər oyatmışdır.

Tarix Azərbaycan xalqını çox sınaqlara çəkmişdir. Lakin Şimaldan, Cənubdan, Avropadan, Amerikadan, haradan olursa olsun, ölkəmizə qarşı çıxanlar gec-tez öz cəzasını almış, haqq-ədalət qarşısında cavab vermişlər. Bu gün də müzəffər Ordusunun gücü ilə işğalçını məhv edib Qarabağdan qovan xalqımız öz qətiyyətli dövlət başçısı ilə yeni hədəflərə doğru addımlayır. Yolumuz Qərbi Azərbaycanadır.

*Zəngəzura salam olsun!*

**Əli CABBAROV**

*Tarixi Azərbaycan torpaqları*

## Qərbi Azərbaycan elinin sazlı, sözlü aşığı

*Qərbi Azərbaycan torpaqlarında aparılan etnik təmizləmə nəticəsində doğma yurd-yuvalarından qaçqın düşən həmyerlilərimizin pənah gətirdiyi yerlərdən biri də Naxçıvandır. Həsənovlar ailəsi onlardan biridir. 1988-ci ildə doğma torpaqlarından deportasiya olunan ailə hazırda Kəngərli rayonunun Çalxanqala kəndində yaşayır.*



Kamil Teymur oğlu Həsənov yaşadığı yerlə bağlı xatirələrini bizimlə bölüşdü: – 1948-ci ildə Əzizbəyov rayonunun Gomur kəndində doğulmuşam. Orada orta məktəbi bitirmişəm. Həmin məktəbdə kitabxana müdiri, laborant işləmişəm. Kəndin sahə briqadiri olmuşam. Gomurda mədəniyyət güclü inkişaf etmişdi, çoxlu saz ustalarımız var idi. Dədə-babadan qalan adət-ənənələrimizi həmin kənddə də yaşadırdıq. Ailəmizdə aşıq sənətini dərindən bilənlər olub. Mən də bu sənətin sirlərini əmimdən öyrənmişəm. Gomurda toy mərasimləri aşıqsız keçməzdi, dastan gecələri təşkil edərdik.

“Gomur kəndində ən qədim zamanlardan 1988-ci ilə kimi yalnız azərbaycanlılar yaşayıb”, – deyən Kamil müəllim kəndin bir neçə dəfə erməni təcavüzünə məruz qaldığını bildirdi: – 1918-ci ildə kəndimiz erməni təcavüzünə məruz qalıb, azərbaycanlılar deportasiya olunublar. O vaxtın şahidləri deyirmişlər ki, Axta çayının suyu sanki qan axırmış. Azərbaycanlılar bir də 1988-ci ildə Ermənistan dövlətinin deportasiyasına məruz qalmış, yaşadıqları yerlərdən qovulmuşlar. Həmin il bizim ailə də Gomurdan çıxmaq məcburiyyətində qaldı. Biz bir müddət Şuşa və Ağdamda yaşadıq. Daha sonra Naxçıvana, Çalxanqalaya gəldik. 1993-cü ildən buradakı uşaq musiqi məktəbində saz müəllimi işlədim. Aşıqlıq sənətini şagirdlərimə də öyrətdim. Fəaliyyətimə görə bir neçə dəfə diplomla, fəxri fərmanla təltif olunmuşam. 10 övladım, 21 nəvəm, 8 nəticəm var.

Öyrənirəm ki, Kamil Həsənovun doğma elinə həsr etdiyi şeirləri çoxdur. O, “Gomurun” şeirində deyir:

*Neçə yol boşalıb, neçə yol dolub,*
*Neçə yol açılıb, neçə yol solub,*
*Elindən ayrılıb kimsəsiz qalıb,*
*Ağlar olub gülər üzü Gomurun*

*Susuz yurdu, Hasarlı, Plov təpəsi,*
*Muxrusu, Zağlığı, Gözəldərəsi,*
*Hər an təzələnir Vətən yarası,*
*Görən salamatdı özü Gomurun?*

“Dağlar” şeirində isə ümidini itirmir, doğma yurduna yenidən qovuşacağı günü gözləyir:

*Halım yaxşı ola, mənalı yazam,*
*Qürbətdə xan olsam, bilin,*
*nasazam.*
*İstərəm atlanam, qoynunda gəzəm,*
*Dumandan, çiskindən kam*
*alan dağlar.*

“Bir gün Gomura qayıdacağıq”, – deyən Kamil müəllim 44 gün ərzində əldə edilən Zəfərdən sonra buna könüldən inandığını dedi.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan teatrı beynəlxalq festivalda ölkəmizi təmsil edib



Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı “Dönüşüm” mövzulu 11-ci Beynəlxalq İzmir Teatr Festivalında iştirak edib. Türkiyənin Mədəniyyət və İncəsənət Fondu (TAKSAV) tərəfindən təşkil edilən festival çərçivəsində yaradıcı heyət teatrın baş rejissoru Mir Qabil Əkbərovun quruluş verdiyi “Edama məhkumun son günü” tamaşası ilə İzmir Mədəniyyət parkında qardaş ölkənin sənətsevərlərinin qarşısına çıxıb. Festivalda Azərbaycanla yanaşı, İran, Serbiya kimi ölkələr və Türkiyənin müxtəlif şəhərləri təmsil olunub.

“Edama məhkumun son günü” tamaşasında rolları Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşiyev, həmçinin gənc səhnə ustaları Mehri Nəbiyeva və Məmməd Mehdiyev ifa edir. Psixoloji dram janrında olan səhnə əsərinin quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov, xoreoqrafı isə Lamiyə Əliyevadır.

Tamaşada edama məhkum edilmiş bir atanın ölümü gözləyərkən keçirdiyi hisslər, sarsıntılar əks olunur.

Festival çərçivəsində, ümumilikdə, 26 tamaşa nümayiş olunacaq.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Şəhidlərimizin xatirəsinə həsr olunmuş intellektual oyun keçirilib



Gənclər Mərkəzində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş “Xəmsə” milli intellektual oyunu reallaşıb. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi oyunda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Altı komandanın qatıldığı intellekt oyununda iştirakçılar hərəsi beş nəfərdən ibarət 2 mərhələdə yarışıblar.

Heydər Əliyev adına tam orta məktəbin “Əlincə” komandası yarışmanın qalibi olmaqla kuboka sahib çıxıb. Naxçıvan Qızlar Liseyinin “Turan” komandası ikinci, Heydər Əliyev adına tam orta məktəbin “Dəmir yumruq” komandası isə üçüncü olub. İlk üç yerin sahibi olan komandaların üzvlərinə diplom təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Şərur rayonunun Zeyvə kənd sakini Əliyev Telman Qafar oğlunun adına olan JN-1748 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

*İdman*

## İdmançımız dünya çempionu olub

Rusiyanın paytaxtı Moskva şəhərində güc idman növləri üzrə ilk dünya çempionatı – “World Championship Powersport WPSO” keçirilib. Yarışda dünyanın müxtəlif ölkələrindən 300-dən çox idmançı iştirak edib. Ölkəmizi benç press növündə 90 kiloqram çəki dərəcəsində təmsil edən Naxçıvan idmançısı Əli Əsgərov gözləntiləri doğruldaraq böyük uğura imza atıb. Təmsilçimiz 190 kiloqramlıq ştanqı sinəsi üzərinə qaldırmaqla həm öz çəkisində çempion olub, həm də benç press növünün mütləq qalibi adına yiyələnib.



Məlumat üçün bildirək ki, Naxçıvan Regional Miqrasiya Baş İdarəsində çalışan Əli Əsgərov güc idman növləri üzrə Avrasiya çempionluğu, pauerliftinq üzrə dünya üçüncülüyü, Azərbaycan çempionluğu, ölkə qran-prisindəki birinciliyi və digər nəticələri ilə uğurlu karyeraya malik idmançılarımızdandır.

## Beynəlxalq reytinqli şahmat turnirinə start verilib

Naxçıvan Şahmat Mərkəzində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş FIDE reytinqli şahmat turniri keçirilir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Naxçıvan Şahmat Federasiyası ilə birgə təşkil etdiyi yarışda müxtəlif yaş kateqoriyalarına mənsub 64 şahmatçı iştirak edir.



Yerli şahmatçıların beynəlxalq reytinqinin yüksəlməsinə xidmət edən turnir dekabrın 12-dək davam edəcək. 9 turdan ibarət yarışın yekun sıralaması reytinq hesablamaları üçün Beynəlxalq Şahmat Federasiyasına (FIDE) göndəriləcək.

İlk üç yerin sahibləri və müxtəlif nominasiyaların qalibləri mükafatlandırılacaqlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 711